Asudə Vaxt Və Əyləncə
Baş Məqalə - Betti Bleyer

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 3.3 (Payız 1995)
© 2003. Azerbaijan İnternational

Bayram əhval-ruhiyyəli insanlar kimi tanınan azərbaycanlılar bu günlər yenə də əvvəlki kimi əylənməyə başlayır. Bu yalnız evlərdə və klublarda deyil, hər yerdə hiss olunur. Daha çox evlərin həyətlərində, küçələrdə və meydanlarda bunun şahidi ola bilərsiniz. Uşaqlar bir yerə yığılaraq bir-birinə ən son məşhur mahnıları öyrədir, top-top oynayır, ip üstündən hoppanır, velosiped sürür və itlərini gəzdirirlər. Parklarda adamlar ailəliklə və dostlarla birgə tələsmədən gəzişirlər. Kişilər domino, nərd və şahmat oynamaq üçün bir yerə yığışır.

Hətta kədər hökm sürən çadır həyatında belə qaçqınların musiqiçilərin ətrafına yığılaraq oxuduğunu və oynadığını, uşaqların isə konserv bankalarından hazırladıqları oyuncaqlarla oynadıqlarını görə bilərsiniz.

## Əyləncə Üçün Qeyri-Münasib Dövr

İki il bundan qabaq bir çox ictimai yerlər asudə vaxtları çox vaxt boş olurdu. Adamlar bir çox dostlarının, xüsusilə də erməni, yəhudi və rus dostlarının ölkəni tərk etdiklərindən şikayət edirdilər. Onların köhnə telefon kitabçalarından o qədər tanış adın üstündən xətt çəkilmişdi ki.

Musiqiçilər boş konsert zallarında çalırdı. Opera və baletlərdə tamaşanın səhnələşdirilməsində iştirak edənlərin sayı tamaşaçılardan çox olurdu. Bəhanə isə həmişə belə olurdu: “Müharibə getdiyi və bu qədər qaçqının əziyyət çəkdiyi bir dövrdə biz belə şeylər haqda necə düşünə bilərik? Millətimiz matəm içindədir. Belə olan təqdirdə necə əylənə bilərik?”

## Psixoloji Dəyişiklik

Xarici vətəndaşlar çox vaxt unudurlar ki, Sovet sisteminin dağılması ilə baş verən bu demokratiya və bazar iqtisadiyyatına keçid dövründə hər bir kəs radikal psixoloji dəyişikliyə məruz qalmışdı.

Vəzifələr və rollar dəyişdikdə münasibətlərin də dəyişilməsi labüddür. Yeni kriteriya ətrafında status formalaşır. Yeni reallıqlara uyğun gəlmək üçün insanlar özlərini dönə-dönə yenidən qiymətləndirirlər.

Şöhrətli və nüfuzlu mövqeyə (or: vəzifəyə) alışmış bir professor siqaret satıcısının küçənin küncündə dayanaraq ondan çox pul qazandığını gördükdə tərəddüd etməyə başlayır.

**Oyun Müalicəvi Xarakterlidir**

Oyun psixoloji manipulyasiyaya, ətrafınızdakılara başqa istiqamətdən baxma qabiliyyətinə kömək edir. O insanı gündəlik problemlərin yaratdığı gərginlikdən çıxarır. O həm də qayda, struktur, nəzarətin hökm sürdüyü və gündəlik həyatda baş verən xaosa yol verilməyən bir mühitdə mikrokosm yaratmaqla daxili enerjini təzələyir. Buna görə də siz müəyyən bir oyun oynayan bir kəs gördükdə bu o deməkdir ki, söylədiyimiz həmin bu proseslər baş verir. Artıq insanlar bu yeni quruluşda öz yerlərini tapmağa başlayıb.

Bu sabitləşdirici təsirə iki əsas hüquqi sənəd də öz töhfəsini vermişdir. Bunlardan biri siyasi, digəri isə iqtisadi əhəmiyyət daşıyan sənəddir. Artıq bir ildən çoxdur ki, Qarabağ münaqişəsi ilə əlaqədar ermənilərlə atəşkəs bağlanmışdır. Bunun daimi sülh yaradacağına cüzi də olsa ümid yaranmışdır.

Keçən il dekabr ayında Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) 11 xarici neft şirkəti ilə Xəzər dənizi yatağında neft ehtiyatlarından məhsuldar şəkildə neft istehsalı vəd edən bir müqavilə imzaladı. Bu inkişafın – imkanlardan istifadə edərək iqtisadiyyatın dirçəldilməsinin yavaş gedən bir proses olacağı gözlənilir.

**Oyun Ünsiyyət Yaradır**

Hər şeydən əvvəl oyun qarşılıqlı ünsiyyət və əlaqə imkanı yaradır. Sovet İttifaqının divarları nə qədər hündür olsa da marka kolleksionerləri aşa bilirdilər. Və elə ünsiyyətin bu imkanlarına görə də biz bu nömrəmizi "Asudə Vaxt Və Əyləncə" mövzusuna həsr etmişik. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rəhbəri Paolo Lembonun Azərbaycanda çalışdığı ötən 3 il ərzində həssaslıqla qeyd etdiyi kimi, "Azərbaycanlılar çox yumşaq və nəzakətli insanlardır." (Səh. 62-də olan müsahibəyə baxın). Müharibənin acılarına baxmayaraq nifrət millətin psixologiyasına hopmamışdır. "Bu müxtəlif mədəniyyətlərə qarışmağa hazır olan bir xalqdır." Ümid edirik ki, jurnalımızın toxunduğu məsələlər beynəlxalq əlaqələrin qurulmasında müəyyən rol oynayır.

Oktyabrın 18-də Sovet İttifaqının dağılmasının 4-cü ildönümüdür. Qoy bu növbəti il Qarabağa yalnız atəşkəs deyil, daimi sülh gətirsin. Və Azərbaycanın beynəlxalq bazara çıxması yolunda sonsuz xırdalıqlar və dəfedilməz maneələr tədricən bir-birinin ardınca həll edilsin.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova